2009-cu ildə 100-dən çox yeni məktəbin inşası planlaşdırılıb. Burada əsas məqsəd çoxnövbəliliyin ləğvi və beşgünlük tədris həftəsinə keçilməklə bütün şagirdlər üçün əlverişli təlim şəraitinin yaradılmasıdır.

Məktəblərin infrastrukturunun yeniləşdirilməsi istiqamətində Heydər Əliyev Fondunun təşəbbüsü ilə son illərdə 226 yeni məktəb tikilib, 39 məktəb, 10 uşaq bağçası əsaslı təmir olunub.

Ölkə Prezidenti tərəfindən təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" na əsasən 2009-2012-ci illərdə 450 məktəb üçün yeni binanın inşası, 600 məktəb üçün əlavə korpusların tikintisi, 1200 məktəbin əsaslı təmiri nəzərdə tutulub.

Onu da qeyd edək ki, son illərdə 350 min şagird yerlik 1300-dək yeni məktəb binası istifadəyə verilib.

2008-ci ildə 161 yeni məktəb istifadəyə verilib, 129 məktəb əsaslı təmir edilmiş və müasir avadanlıqlarla təchiz olunub. Ötən il Təhsil Nazirliyi tərəfindən 300-dək məktəb əsaslı təmir edilib. 2009-cu ildə isə 100-dən çox məktəbin əsaslı təmiri nəzərdə tutulub.

Ümumilikdə, son illərdə 700 mindən çox şagird, yəni bütün şagirdlərin təxminən 50 faizi müasir tələblərə cavab verən məktəblərdə təhsil almaq imkanı əldə edib.